*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 27 noyabr 2019-cu il № 92 (2409) Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev NATO-nun Hərbi Komitəsi sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 26-da NATO-nun Hərbi Komitəsinin sədri Ser Stüart Piiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin üzvlərini salamlayan Prezident İlham Əliyev dedi:

- Çox şadam ki, artıq neçə il ərzində Azərbaycan belə mühüm görüşlər üçün öz logistika dəstəyini və məkanını təqdim edir. Biz bunu yüksək qiymətləndiririk. Biz bunu aramızda olan dostluq və tərəfdaşlıq əlaməti hesab edirik. Həmçinin etimad əlaməti kimi də qəbul edirik. Çünki dünyada çoxlu ölkə var. Birləşmiş Millətlər Təşkilatında demək olar iki yüz ölkə var. Lakin müəyyənliyə, əməkdaşlığa, risklərin azalmasına və planetimizin daha təhlükəsiz olmasına gətirib çıxaran bu görüşlərin keçirilməsi yeri kimi Azərbaycan seçilmişdir. Biz çox şadıq və qürur hissi keçiririk ki, Azərbaycan həm NATO, həm də Rusiya tərəfindən bu görüşün keçirilmə yeri kimi seçilmişdir. Ümidvarıq ki, əvvəlki, bugünkü və növbəti görüşlər sülh və sabitliyə töhfə verəcəkdir. Bir daha xoş gəlmisiniz.

NATO-nun Hərbi Komitəsinin sədri Ser Stüart Piiç dedi:

- Cənab Prezident, təşəkkür edirəm. Əvvəlcə icazə verin Baş katib cənab Stoltenberqin salamlarını Sizə çatdırım. O, Sizə ən səmimi salamlarını çatdırır.

Prezident İlham Əliyev: Çox sağ olun, mənim də salamlarımı cənab Baş katibə çatdırın. Mən onunla NATO mənzil-qərargahında görüşümü xatırlayıram. Həmçinin Şimali Atlantika Şurasında səfirlərlə ünsiyyətimi xatırlayıram. Mən orada dəfələrlə olmuşam.

Ser Stüart Piiç: Bugünkü görüşə əlavə olaraq icazə verin Silahlı Qüvvələrinizin NATO-ya dəstəyinə görə Sizə təşəkkürümü bildirim. Tərəfdaş və dost olaraq bu, bizim üçün çox önəmlidir. Sizin Silahlı Qüvvələrinizə bizim böyük hörmətimiz var, onlar çox peşəkar və effektivdirlər.

Prezident İlham Əliyev: Çox sağ olun. Biz NATO-nun etibarlı tərəfdaşıyıq və bizim hərbçilərimiz Əfqanıstanda NATO hərbçiləri ilə çiyin-çiyinə xidmət edirlər. Bildiyiniz kimi, bu yaxınlarda biz hərbçilərimizin sayını 30 faiz artırdıq, indi onların sayı 120 nəfərdir. Həmçinin biz Sülh Naminə Tərəfdaşlıq Proqramı çərçivəsində də işləyirik. Eyni zamanda, Əfqanıstana gedən yüklərə mühüm logistik və nəqliyyat dəstəyini təmin edirik. Həmçinin iki il bundan əvvəl biz Azərbaycan və Türkiyə arasında dəmir yolunun açılışını etdik və hazırda bu yoldan daşımalar üçün istifadə edilir. Digər vacib məsələ ondan ibarətdir ki, biz Lapis Lazulinin öz sistemimizlə bağlanmasına nail olduq. Biz artıq Əfqanıstandan onların ixrac etdiyi yükləri qəbul etməyə başlamışıq. Beləliklə, biz Əfqanıstana iqtisadi və sosial inkişaf üçün daha çox pul qazanmağa kömək edirik. Eyni zamanda, biz bir neçə dəfə Əfqan Milli Ordusunun Etimad Fonduna ianələr vermişik. Həmçinin biz Əfqanıstan hökuməti ilə islahatlar üzərində yaxından işləyirik. Çox qürurvericidir ki, dövlət xidmətlərinin göstərilməsi üzrə ilk mərkəz olan ASAN, - bu nou-xaunun sahibi bizik, - Əfqanıstanda açılmışdır. Beləliklə, bu, vahid pəncərə sistemi çərçivəsində çox nadir dövlət xidmətləri mərkəzidir. İki yüzdən çox xidmət var, bunlar onlayn və çox səmərəli şəkildə göstərilir. Burada bu mərkəzin bəyənilmə səviyyəsi 100 faizə yaxındır. Bəlkə nümayəndə heyətinizin bəzi üzvləri onların birinə baş çəkə bilər, Bakıda beş mərkəz mövcuddur. Bunu biz əfqan tərəfdaşlarımıza nəyi təklif etdiyimizi görsünlər deyə deyirəm. Əlbəttə, təhlükəsizlik və terrorla mübarizə əməliyyatları çox vacibdir, lakin ölkəyə iş yerləri, məşğulluq, sosial müdafiə, iqtisadi islahatlar lazımdır və biz bu məsələlərlə bağlı Əfqanıstan hökuməti ilə çox geniş iş aparırıq.

## Prezident İlham Əliyev Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 26-da Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin üzvlərini salamlayan Prezident İlham Əliyev dedi:

- Hörmətli Valeri Vasilyeviç.

Hörmətli qonaqlar.

Sizi yenidən görməyimə çox şadam. Xoş gəlmisiniz. Rusiyanın və NATO-nun ali hərbi komandanlığının Bakıda görüşlər keçirməsi yaxşı bir ənənəyə çevrilib. Biz bunu yüksək qiymətləndiririk. Keçən il üç dəfə belə görüş olub. Bu il artıq ikinci görüşdür. Yəni, bu ənənə artıq yaşayır və düşünürəm ki, davam edəcək. Biz bunu bizə böyük etimad əlaməti kimi qiymətləndiririk. Ona görə ki, belə görüşlərin keçirildiyi yer çox ölkələr ola bilərdi, lakin seçim Bakının üzərinə düşüb və artıq üçüncü ildir ki, bu ənənə davam edir, - görüşlərin təməli 2017-ci ildə qoyulub, - bu, o deməkdir ki, bu məkan nəticə verir. Biz belə düşünürük.

Əlbəttə, hər bir görüş, zənnimcə, bütün dünyada ümid doğurur. Ona görə ki, təkcə bizim regionda deyil, həm də dünyada təhlükəsizlik və sülh sizin əldə etdiyiniz razılaşmalardan asılıdır. Buna görə biz, əlbəttə ki, bundan qürur duyuruq. Bunu həm də bizim aramızda böyük etimada əsaslanan münasibətlərin əlaməti kimi qəbul edirik. Bu gün ən yüksək səviyyəyə çatmış münasibətlərimizin qədim tarixi də bunu təsdiq edir.

Mehriban Əliyevanın Moskvaya dünən başa çatmış rəsmi səfəri də bizim münasibətlərin yüksək səviyyədə olmasını bir daha təsdiq etdi. Biz bu səfəri çox yüksək qiymətləndiririk. Başa düşürük ki, bu, beynəlxalq siyasətdə görünməmiş hadisədir, dövlətdə birinci şəxs olmayan adam Prezident tərəfindən, özü də dünyanın aparıcı ölkəsinin Prezidenti və dünya siyasətçiləri arasında bir nömrəli Prezident tərəfindən ən yüksək səviyyədə qəbul edilir. Zənnimcə, bu, təkcə mənim fikrim deyil, rəhbərlərin böyük əksəriyyətinin fikridir. Biz dəvət faktının özünü, münasibətlərin səviyyəsini, Mehriban Əliyevanın şəxsən Prezident tərəfindən ali "Dostluq" ordeni ilə təltif edilməsini və bu təltifdən sonra deyilən sözləri çox yüksək qiymətləndiririk. Biz bütün bunları çox yüksək qiymətləndiririk və əlbəttə, şadıq ki, ölkələrimiz arasında münasibətlər bu cür yüksək səviyyəyə çatıb. Əlbəttə, Hökumətin sədri ilə, Federasiya Şurasının sədri ilə görüşlər də çox konstruktiv, zəngin olub və həmçinin regionlararası yubiley forumunun keçirilməsi və Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində "Azərbaycan" pavilyonunun açılması - bütün bunlar bizim əlaqələrin möhkəmlənməsi işində çox mühüm addımlardır. Əminəm ki, növbəti də səmərəli olacaq. Gələn ay Vladimir Vladimiroviçlə görüşümüz olacaq.

Əlbəttə, sizin məşğul olduğunuz sahədə də müsbət dinamikanı görürük. Sizin Bakıya hər gəlişiniz, o cümlədən hərbi əməkdaşlığı, çox uğurla inkişaf edən hərbi-texniki əməkdaşlığı bir daha müzakirə etmək və gələn il qarşılıqlı fəaliyyətin yollarını müəyyənləşdirmək üçün bir fürsətdir. Hesab edirik ki, Rusiya ilə Azərbaycan arasında həm ənənəvi istiqamətlərdə, həm də yeni istiqamətlərdə əməkdaşlığı potensialını artırmağa imkan var. Ona görə də bir daha xoş gəlmisiniz. Qarşıdakı görüşdən yaxşı nəticələr arzu edirəm.

Görüşdə tərəflər beynəlxalq və regional təhlükəsizlik problemlərini, həmçinin hərbi və hərbi-texniki əməkdaşlığın aktual məsələlərini, o cümlədən müdafiə idarələrinin Xəzərdə qarşılıqlı fəaliyyətini müzakirə ediblər.

AZƏRBAYCAN ORDUSU

# Müdafiə naziri NATO-nun Hərbi Komitəsinin sədri ilə görüşüb



*Noyabrın 26-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə işgüzar səfərdə olan NATO-nun Hərbi Komitəsinin sədri, Aviasiya Baş Marşalı Ser Stüart Piiçin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan ilə Şimali Atlantika Alyansı arasında 25 illik dayanıqlı əməkdaşlıqdan danışan Müdafiə naziri bu əlaqələrin inkişaf etdiyini, Azərbaycan Ordusunun müxtəlif proqramlar çərçivəsində fəaliyyətini və ölkəmizin Əfqanıstandakı "Qətiyyətli Dəstək" Missiyasına verdiyi töhfəni qeyd edib.

Bölgədəki hərbi-siyasi vəziyyətə toxunan general-polkovnik Zakir Həsənov NATO-nun ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə verdiyi siyasi dəstəyi xatırladaraq bunun ümumilikdə Avroatlantik məkanda təhlükəsizliyin möhkəmlənməsinə, eləcə də regional sülhə və sabitliyə xidmət etdiyini nəzərə çatdırıb, Alyansın bundan sonra da bu istiqamətdə səylərinin davam edəcəyinə əminliyini ifadə edib.

Öz növbəsində Aviasiya Baş Marşalı Ser S.Piiç Azərbaycanın Alyansın etibarlı tərəfdaşı olduğunu qeyd edərək ölkəmizin terrorizmlə mübarizədə iştirakını, sülhməramlı əməliyyatlar üçün yük daşımalarına önəmli töhfə verdiyini, Əfqanıstanda həyata keçirilən əməliyyatlarda göstərilən peşəkarlığı yüksək qiymətləndirib, Alyansın bir çox proqramlarında Azərbaycan hərbçilərinin fəal iştirakını, habelə NATO-nun müxtəlif qərargahlarında xidmət edən zabitlərimizin hazırlıq səviyyəsini xüsusi vurğulayıb.

Aviasiya Baş Marşalı Ser S.Piiç NATO-nun Azərbaycanın ərazi bütövlüyünü, müstəqilliyini və suverenliyini dəstəklədiyini bildirərək Alyansın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin tərəfdarı olduğunu diqqətə çatdırıb.

Qonaq səmimi qəbula və göstərilən qonaqpərvərliyə, həmçinin Bakıda Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ilə görüşün keçirilməsi üçün yaradılan şəraitə görə Azərbaycan dövlətinin rəhbərliyinə minnətdarlığını bildirib.

Görüşdə Azərbaycan ilə NATO arasında həyata keçirilən əməkdaşlıq proqramları çərçivəsində əməliyyat hazırlığı, təlimlərin keçirilməsi, hərbi təhsilin inkişafı, qüvvələr arasında qarşılıqlı uzlaşmanın əldə olunması məsələləri müzakirə edilib, həmçinin əməkdaşlığın inkişaf perspektivləri və NATO-nun İraqda həyata keçirdiyi missiyaya ölkəmizin mümkün töhfəsi barədə fikir mübadiləsi aparılıb.

# Azərbaycan və Rusiya Silahlı Qüvvələrin Baş Qərargah rəislərinin görüşü keçirilib

*Noyabrın 26-da Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov ölkəmizdə işgüzar səfərdə olan Rusiya Federasiyası Silahlı Qüvvələrin Baş Qərargah rəisi - Müdafiə nazirinin birinci müavini ordu generalı Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətilə görüşüb.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, qonaqları salamlayan Azərbaycan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi iki ölkə arasında əlaqələrin genişlənməsində dövlət başçılarının böyük rol oynadıqlarını, əməkdaşlığın dostluq və qarşılıqlı inama əsaslandığını, bu əlaqələrin daim inkişaf etdiyini və son illərdə strateji tərəfdaşlıq səviyyəsinədək yüksəldiyini qeyd edib.

Azərbaycan və Rusiya müdafiə nazirlikləri arasında 2020-ci il üçün ikitərəfli əməkdaşlıq planının imzalandığını vurğulayan general-polkovnik N.Sadıkov hərbi sahənin müxtəlif istiqamətlərini əhatə edən tədbirlərin sayının artdığını qeyd edib.

Hərbi-texniki sahədə əməkdaşlıq haqqında danışan Azərbaycan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi qeyd edib ki, ölkəmiz Rusiyanın müdafiə sənayesi şirkətləri ilə əməkdaşlığa xüsusi önəm verir.

Bölgədəki hərbi-siyasi vəziyyətə və təhlükəsizlik məsələsinə toxunan general-polkovnik N.Sadıkov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin regional sabitliyə əsas təhlükə yaratdığını, onun Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüququn norma və prinsipləri əsasında həllinə nail olunmasının vacibliyini vurğulayıb.

Ordu generalı V.Gerasimov da əlaqələrimizin tarixi köklərə əsaslandığını, ölkələrimizin strateji tərəfdaş olduğunu qeyd edərək hərbi nümayəndələrin qarşılıqlı görüşlərinin təşkili və keçirilməsinin ikitərəfli münasibətlərin, eləcə də hərbi və hərbi-texniki sahədə əməkdaşlığın genişlənməsi baxımından zəruriliyini qeyd edib.

Sonra tərəflər hərbi, hərbi-texniki əməkdaşlığın mövcud vəziyyəti və hərbi təhsil sahəsində əlaqələrin inkişaf perspektivlərini müzakirə edib, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında ətraflı fikir mübadiləsi aparıblar.

Sonda ordu generalı V.Gerasimov NATO-nun Hərbi Komitəsinin sədri ilə ikitərəfli görüşün Bakıda təşkil edilməsi və yüksək qonaqpərvərliyə görə Azərbaycan dövlətinin rəhbərliyinə dərin minnətdarlığını bildirib.

# Əlahiddə Ümumqoşun Orduda növbəti zabit heyətinin təkmilləşdirilməsi kursu uğurla başa çatıb

Əlahiddə Ümumqoşun Orduda növbəti zabit heyətinin təkmilləşdirilməsi kursunun uğurla başa çatması münasibətilə buraxılış mərasimi keçirilib.



Azərbaycan Respublikasının Dövlət himni səsləndirildikdən sonra mərasimdə çıxış edən polkovnik Mehman Gülməmmədov bildirib ki, kurs zamanı təyin olunmuş tədris proqramına uyğun olaraq nəzəri, praktiki və göstərici məşğələlər keçirilib. Məşğələlər zamanı kursa cəlb edilmiş zabitlərin peşəkarlıqlarının artırılması məqsədi ilə silahlanmaya yeni daxil edilmiş ən müasir silah və hərbi texnika nümunələri real döyüş şəraitində tətbiq edilib.

Məzunlar adından kapitan Yusif Şabanov çıxış edərək vurğulayıb ki, kursda qazandıqları yeni taktiki bilikləri, eləcə də idarəçilik və təşkilatçılıq bacarıqlarını xidmət yerlərində uğurla tətbiq edəcək, tabelikdə olan şəxsi heyətin peşəkarlığının daha da artırılması üçün əllərindən gələni əsirgəməyəcəklər.

Mərasimdə Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev şəxsi heyəti təbrik edərək bildirib ki, təməli ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş ordu quruculuğu siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun yüksək diqqət və qayğısı sayəsində uzun illər müxtəlif mərhələlərdən keçərək formalaşmış Əlahiddə Ümumqoşun Ordu bu gün yeni-yeni uğur və zəfərlər qazanmaqda davam edir. 2017-ci ildə keçirilmiş möhtəşəm hərbi parad, 2018-ci ildə qazanılmış uğurlu Günnüt zəfəri və bu il Naxçıvanda keçirilmiş "Sarsılmaz qardaşlıq-2019" Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təlimi Əlahiddə Ümumqoşun Ordunun gücünü bir daha bütün dünyaya nümayiş etdirdi.

General-leytenant Kərəm Mustafayev deyib: "Bütün bunlara hər zaman dövlət qayğısını üzərində hiss edərək və xalqordu birliyindən ruhlanaraq ən çətin döyüş tapşırıqlarının öhdəsindən layiqincə gəlməyi bacaran əzmkar şəxsi heyətimizlə nail olmuşuq. İnanırıq ki, bu gün kursu uğurla başa vuraraq yuxarı vəzifələrə təyin olunan zabitlərimizin peşəkarlığı nəticəsində yeni zəfərlərə imza atacağıq".

Təbrik oxunduqdan sonra məzunlara sertifikat və hədiyyələr təqdim edilib.

Kurs birincisi tərəfindən xatirə lövhəsinə buraxılış emblemi vurulub və xidmətdə fərqlənən bir qrup zabit fəxri fərmanla təltif edilib.

Məzunların yuxarı vəzifələrə təyin olunmaları ilə bağlı verilən əmr mərasim iştirakçılarına çatdırıldıqdan sonra tribuna önündən təntənəli keçid olub.

Sonda məzunlarla xatirə şəkli çəkdirilib.

**Leytenant
Nəriman NƏCƏFOV,
"N" hərbi hissəsi**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***26 noyabr 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber, Ayqeovit kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım, Qızılhacılı, Bala Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Baş Qərvənd, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Qorqan kəndləri yaxınlığında, həmçinin Tərtər və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Müdafiə Nazirliyinin təşkilatçılığı ilə Qusar rayonunda Milli Qəhrəman Çingiz Qurbanovun 25 illiyi qeyd olunub



Noyabrın 24-ü Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun doğum günüydü. Şəhid əsgər yaşasaydı, onun 25 yaşı tamam olacaqdı. Lakin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2017-ci il fevralın 9-da Milli Qəhrəmanın ailə üzvlərini qəbul edərkən dediyi kimi: "Əsgər Çingiz Qurbanov doğma torpağını müdafiə edərkən qəhrəmancasına həlak olmuşdur. Çingiz böyük qəhrəmanlıq, igidlik göstərmişdir. Düşmənlə üz-üzə qalaraq qeyri-bərabər döyüşdə bir daha düşmənə göstərdi ki, Azərbaycan əsgəri nəyə qadirdir. O, geri çəkilmədi, qorxmadı, baxmayaraq ki, təkbaşına böyük diversant qrupu ilə üz-üzə gəlmişdi. Son nəfəsinə qədər vuruşmuş, bir neçə işğalçını məhv etmiş, şəhidlik zirvəsinə ucalmışdır. Biz Çingizlə fəxr edirik, bütün Azərbaycan Çingizlə fəxr edir. Bu, bir daha göstərdi ki, Azərbaycan vətəndaşı, Azərbaycan gənci, əsgəri heç vaxt bugünkü vəziyyətlə barışmayacaq. Bu, bir daha göstərdi ki, Azərbaycan dövlətinin güclü əsgərləri var. O, böyük vətənpərvərlik, peşəkarlıq, rəşadət göstərmişdir. Çingiz ölməyib, o, bizim üreyimizdə yaşayır, yaşayacaqdır".

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, qəhrəmanın ad günündə nazirliyin bir qrup hərbi qulluqçusu Qusar rayonunda olub və onun ailə üzvləri ilə görüşüb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Qusar rayonundakı Şəhidlər xiyabanı ziyarət olunub, şəhid Milli Qəhrəmanın məzarı üzərinə Müdafiə Nazirliyinin adından əklil qoyulub, xatirəsi ehtiramla yad edilib.



Vətən üçün Çingiz kimi qəhrəman, igid oğul yetirən valideynlərə Müdafiə Nazirliyi rəhbərliyinin minnətdarlıq dolu salamlarını çatdıran Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani Şəhidlər xiyabanında keçirilən anım mərasimində çıxış edərək deyib: "Bütün Azərbaycan vətəndaşları kimi, qusarlılar da Azərbaycan dövlətinə, Azərbaycan dövlətçiliyinə bütün dövrlərdə sadiq olmuş, bu gün də Azərbaycan naminə, Azərbaycanın inkişafı, tərəqqisi, müdafiəsi naminə öz töhfələrini verirlər. Bu torpaqdan pərvazlanan Çingiz də yaxşı bilirdi ki, onun ulu babaları vaxtilə Azərbaycanda yaşayan digər xalqların nümayəndələri ilə bir səngərdə təcavüzkarlara, daşnak quldurlarına qarşı qətiyyətlə mübarizə aparıb, bu dostluq, qardaşlıq ümumi düşmənə qarşı qanlı savaşlarda daha da möhkəmlənib, bərkiyibdir.

Quba rayonunun Digah kəndi ərazisindəki "Qanlı dərə"də erməni qulduru Amazaspın qoşununun darmadağın edilməsində qusarlılar müstəsna igidliklər göstərib və bu dərədə ləzgilərin, azəri türklərinin, qırız, buduq və tatların qanları bir-birinə qarışıbdır. Xəzər dənizindən Şahdağa kimi bu ərazidə yaşayan bütün müsəlmanları məhv etmək üçün qaniçən Şaumyan tərəfindən Azərbaycanın şimal bölgəsinə işğalçılıq məqsədilə göndərilmiş erməni quldurу Amazaspın arzusu gözündə qalıb, bu bölgədə yaşayan bütün xalqlar çiyin-çiyinə vərərək düşmənə divan tutublar."

Nəzərə çatdırılıb ki, Qusar rayonu neçə-neçə sərkərdənin, qəhrəmanın vətənidir. Qafqazda çar işğalına qarşı baş vermiş ilk mütəşəkkil silahlı üsyanın təşkilatçısı və rəhbəri olmuş Xuluqlu Hacı Məhəmməd, çarizmin müstəmləkəçilik siyasətinə qarşı çıxmış və Azərbaycan Demokratik Respublikasını müdafiə etmək üçün dəfələrlə XI Qızıl Ordunun dəstələri ilə fədakarcasına döyüşmüş Cağarlı Qaçaq Hətəm, İkinci Dünya müharibəsində göstərdikləri rəşadətə görə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş Mirzə Vəliyev, Adil Quliyev, Aleksandr Rıvnikov, Bolqarıstanın Milli Qəhrəmanı fəxri adına layiq görülmüş general-mayor Mahmud Əbilov, Qarabağ uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalmış Milli Qəhrəman Fəxrəddin Musayev və neçə-neçə igid döyüşçü bu torpağın yetirməsidir və onların adları şanlı döyüş tariximizə qızıl hərflərlə yazılmışdır".

Qəhrəmanın qısa, lakin mənalı ömür yolundan ətraflı məlumat verən polkovnik A.Qurbani diqqətə çatdırıb ki, Çingiz Salman oğlu 1994-cü il noyabrın 24-də Həzrə kəndində doğulub. "2012-ci ildə kənd tam orta məktəbini bitirdikdən sonra Azərbaycan Texniki Universitetində təhsil alıb. 2016-cı ilin iyulunda könüllü olaraq hərbi xidmətə yollanıb. Gənc əsgərlərin hazırlıq kursunu keçdikdən sonra öz arzusu ilə cəbhə bölgəsində xidmətini davam etdirib. Həmin il dekabr ayının 29-da Azərbaycan-Ermənistan dövlət sərhədində Ermənistan silahlı bölmələrinin diversiya qrupunun qarşısını alarkən şəhid olub və Azərbaycan Respublikası Prezidentinin 7 fevral 2017-ci il tarixli Sərəncamı ilə ona Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanmasında xüsusi xidmətlərinə və döyüş tapşırıqlarını yerinə yetirərkən göstərdiyi şəxsi igidliyə görə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib. Digər şəhid qəhrəmanlarımız kimi Ç.Qurbanovun da adı həmişə əziz tutulur. Ailəsi ölkə rəhbərliyinin daim diqqət mərkəzindədir. Qusar və Tovuz rayonlarında küçələrdən birinə onun adı verilib. Xatirə lövhəsi vurulub, haqqında sənədli film çəkilib, kitab və opera yazılıb."

Müdafiə nazirinin müvafiq əmrinə əsasən, Azərbaycan Ordusunda ilk dəfə olaraq xidmət etdiyi döyüş mövqeyinə əsgərin adı verilib, xatirə abidəsi ucaldılıb. Hərbi hissənin şəxsi heyəti adından çıxış edən mayor Abakar Hacıyev bildirib ki, bu gün Azərbaycan Ordusunda yüzlərlə, minlərlə Çingiz kimi oğullar var. Onlar hər an Ali Baş Komandanın əmrlərinə hazırdırlar və 2016-cı ilin Aprel döyüşləri və eləcə də, 2018-ci ilin mayında Naxçıvan Muxtar Respublikasının Ermənistanla sərhədindəki döyüş əməliyyatları zamanı Azərbaycan əsgərinin xalqımıza yaşatdığı qələbə sevincini təkrarlamağa hər an qadirdirlər.

Şəhid Sərvər Abdulkərimov adına Balaqusar kənd tam orta məktəbinin direktoru Babacan Zəkiyev Çingiz haqqında xatirələrini danışıb. Onun hələ orta məktəb illərində qəhrəmana xas olan xüsusiyyətlərə malik olduğunu, "Cəsurlar", "Şahin", "Sərhəd" hərbi idman oyunlarında məktəb komandasının zona və respublika yarışlarında fərqlənməyində onun müstəsna rolunun olduğunu qeyd edib.

Qusar bələdiyyəsinin sədri Əlfəddin Cəlilov, Qafqaz Müsəlmanları İdarəsi Qusar rayon dini icmasının sədri Fəryəddin Rəhimxanov, Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Qusar rayon filialının sədri, müharibə veteranı Canəli Hörmətov və şəhidin bibisi Nüşabə Hacıyeva şəhid ailələrinə, müharibədə sağlamlığını itirənlərə, eləcə də müharibə veteranlarına göstərilən dövlət qayğısından minnətdarlıqla söhbət açıb, Azərbaycan Ordusunun uğur və nailiyyətlərindən fəxrlə danışıblar.



Çingizin babası Qurban kişinin də İkinci Dünya müharibəsi illərində Berlinə qədər döyüş yolu keçdiyi xatırlanıb. Şəhidin atası Salman Qurbanov göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, Müdafiə Nazirliyinin rəhbərliyinə ailələri adından dərin minnətdarlığını bildirib. Gənclərin ümummilli liderimiz, ulu öndər Heydər Əliyevin azərbaycançılıq məfkurəsi əsasında tərbiyə edilməsi istiqamətində həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlərin əhəmiyyətini xüsusilə dəyərləndirib. "Tarixi düşmənlərimiz və bəzi qüvvələr bu gün də Azərbaycanda dostluq və qardaşlıq şəraitində yaşayan xalqların arasına ədavət toxumu səpərək onları qarşı-qarşıya qoymaq istəyirlər. Lakin onlar birdəfəlik anlamalıdırlar ki, Azərbaycanda yaşayan bütün xalqların Mübariz kimi, Fərid kimi, Çingiz kimi minlərlə vətənpərvər qəhrəmanları var və bu oğulların xidmətləri yüksək qiymətləndirilir. Onların xatirələri əbədiləşdirilir və adları həmişə əziz tutulur. Ali Baş Komandanımız və qədirbilən xalqımız var. Torpaqlarımız düşmən tapdağında qalmayacaq. İşğal altındakı ərazilərimiz də tezliklə azad ediləcək və respublikamızın ərazi bütövlüyü təmin olunacaqdır. Düşmənlərimiz bir daha dərk etməlidirlər ki, möhtərəm Prezidentimizin də qətiyyətlə dediyi kimi: "Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi". Biz Qusarlılar da bütün xalqımız kimi Ali Baş Komandanın əmrlərinə hər an hazırıq".

Bu gün Qusar rayonundakı Ç.Qurbanovun xatirə abidəsi qarşısında da qələbəlik yaşanıb. Abidəsi önünə qərənfillər düzülüb, veteran döyüşçülər və hərbi qulluqçular Çingiz haqqında xatirələrini danışıb, məktəblilər şeirlər söyləyiblər.

Hərbi hissədə "Həyatda qəhrəmanlığa həmişə yer var" mövzusunda keçirilən dəyirmi masada və millət vəkilləri Aydın Mirzəzadə, Azər Badamov və Eldəniz Səlimovla görüşdə də Milli Qəhrəman bir daha xatırlanıb. "ARB" Media qrupunun istehsalı olan "Çin olan yuxu" sənədli filmi nümayiş etdirilib. Xidmətdə fərqlənən hərbi qulluqçuların bir qrupuna Abdulla Qurbaninin "Çingiz dastanı" kitabı hədiyyə edilib.

Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən Çingiz Qurbanovun 25 illiyi ilə əlaqədar tədbirlər ilin sonuna qədər davam etdiriləcək. Gələn həftədən başlayaraq Bakı Bələdiyyə Teatrının və Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivlərinin A.Qurbaninin "Çingiz dastanı" mənzum dramı əsasında hazırladıqları iki hissəli tamaşanın premyerası olacaq və bu əsər respublikanın ayrı-ayrı bölgələrində, eləcə də hərbi hissələrdə və xüsusi təyinatlı təhsil müəssisələrində nümayiş etdiriləcəkdir.

AZƏRBAYCAN ORDUSU

# Müdafiə Nazirliyinin dəstəyi ilə ADPU-nun Quba filialında vətənpərvərlik tədbiri keçirilib

*Noyabrın 25-də Müdafiə Nazirliyinin dəstəyi ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialında Milli Qəhrəman Çingiz Qurbanovun anadan olmasının 25 illiyi münasibətilə "Şəhidlər ölməz, Vətən bölünməz!" adlı vətənpərvərlik tədbiri keçirilib.*

*Müdafiə Nazirliyinin rəsmilərinin, qəhrəmanın ailə üzvlərinin, şairlərin, müəllim və tələbələrin iştirak etdiyi mərasim başlamazdan öncə şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni ifa olunub.*






Filialın direktoru dosent Yusif Alıyev qonaqları salamlayaraq dəvəti məmnuniyyətlə qəbul etdiklərinə, Müdafiə Nazirliyinin rəhbərliyinə isə göstərdikləri dəstəyə görə ADPU-nun rektoru, professor Cəfər Cəfərovun adından minnətdarlıqlarını bildirib.

Xalqımızın ümummilli lideri, ulu öndər Heydər Əliyevin "Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz. Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik böyük bir məfhumdur. Bu, sadəcə orduda xidmət etmək deyil. Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq - budur vətənpərvərlik" fikrini tədbir iştirakçılarına xatırladan dosent Y.Alıyev "Bizim ali tədris müəssisəsində də Vətəninə sadiq, Vətənini sevən, torpağına bağlı olan gələcəyin müəllimləri yetişir. Biz yüksək təhsil verməklə yanaşı, onların vətənpərvərlik ruhunda tərbiyə edilməsi işinə də xüsusi önəm veririk. Həqiqətən də, öz tarixini bilməyən, milli-mənəvi dəyərlərimizə malik olmayan, tarixi sərkərdələrimizi, milli qəhrəmanlarımızı tanımayan bir şəxs heç vaxt vətənpərvər ola bilməz. Vətəninə, dövlətinə, xalqına sədaqətli vətəndaş yetişdirə bilməz. Cəmiyyətdə öz yerini tutmağa çətinlik çəkər, cəmiyyətə fayda da verməz. Məhz bugünkü tədbir də, şübhəsiz, tələbələrimizin, elə hər birimizin vətənpərvərlik ruhunun Azərbaycan Ordusuna, işğal edilmiş torpaqlarımızın tezliklə azad ediləcəyinə inamımızın daha da yüksəlməsinə öz müsbət təsirini göstərəcək. Əgər torpaqlarımızın bir hissəsi düşmən işğalındadırsa, soydaşlarımız qaçqın, köçkün həyatı yaşamağa məcbur edilibsə, bir məqsəd, bir amal uğrunda birləşməli, Ali Baş Komandanın əmrlərinə hər an hazır olmalıyıq. Sözün həqiqi mənasında, yaşından, siyasi əqidəsindən, vəzifəsindən, rütbəsindən asılı olmayaraq hər bir vətəndaşımızdan barıt qoxusu gəlməlidir", - deyib.

Qeyd olunub ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında digər sahələrlə yanaşı, ordu quruculuğu sahəsində aparılan uğurlu islahatlar da bütün xalqımız kimi, təhsil işçilərini və tələbələri də hədsiz dərəcədə sevindirir. 2016-cı ilin Aprel döyüşləri və 2018-ci ilin May əməliyyatları zamanı qazanılmış zəfərlərin yenidən təkrarlanacağı heç kimdə şübhə doğurmamalıdır. Ordumuzun maddi-texniki bazası gündən-günə daha da möhkəmlənir, ən müasir silah-sursat, texnikalar alınır, hərbi qulluqçuların sosial-məişət problemləri yüksək səviyyədə həll olunur, şəhid ailələrinə, müharibə qazi və veteranlarına dövlət səviyyəsində göstərilən diqqət və qayğı daha da yüksəlir. Bütün bunlar imkan verir ki, regionun ən güclü ordusu olan Azərbaycan Ordusu istənilən döyüş tapşırığını uğurla yerinə yetirsin. Başlıcası isə odur ki, xalq öz ordusuna inanır, ona güvənir və ordumuzun arxasındadır. Ordumuzda Mübariz kimi, Fərid kimi, Çingiz kimi yüzlərlə, minlərlə qəhrəmanlarımız var və onlar Ali Baş Komandanın bircə əmrinə bənddirlər ki, müqəddəs savaşa atılıb qələbə bayrağımızı Xankəndi, Şuşa, Laçın, Kəlbəcər və işğal altında olan digər əzəli yurd yerlərimizə sancsınlar.

Milli Qəhrəman Çingiz Qurbanovun 22 illik ömür yoluna həsr olunmuş videoçarx nümayiş olunub, foto və kitab sərgisi barədə məlumat verilib, tələbələrin hazırladıqları ədəbi kompozisiya təqdim edilib.

Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani Müdafiə Nazirliyinin hər bir vətənpərvərlik təşəbbüsünə hörmətlə yanaşdığını, onlara həmişə dəstək olduğunu bildirib. Təkcə başa çatmaqda olan 2019-cu ildə yerli icra hakimiyyəti orqanları, idarə və müəssisələr, ali və ümumtəhsil ocaqları, qeyri-hökumət təşkilatları ilə birlikdə yüzlərlə kütləvi vətənpərvərlik tədbirinin keçirildiyini qeyd edib. ADPU-nun Quba filialının kollektivinin ordumuza göstərdiyi mənəvi dəstəyə görə müəllim və tələbələrə minnətdarlığını bildirib.

A.Qurbaninin Milli Qəhrəman Çingiz Qurbanova həsr etdiyi şeirə yazılmış vətənpərvərlik mahnısı səsləndirilib. Müdafiə Nazirliyinin adından "Çingiz dastanı", "Ordu gəncləri böyük qüvvədir", "Lələtəpə fatehləri", "Səninlə fəxr edirik, Azərbaycan əsgəri!" kitabları və "Qarabağ Azərbaycandır!" plakatları filialın kitabxanasına hədiyyə edilib.

Şair Ramiz Qusarçaylının çıxışı və qəhrəmana ithaf etdiyi yeni şeir böyük maraqla qarşılanıb.



Baş müəllim Şıxəmməd Seyidməmmədov, Çingizin vaxtilə təhsil aldığı Qusar rayon Həzrə kənd tam orta məktəbinin direktoru Natiq Novruzov, polis veteranı, şair Qurban Məmmədov, Azərbaycan Ordusunun zabiti Abakar Hacıyev və başqaları çıxış edərək Çingiz Qurbanov haqqında xatirələrini danışıb, ona həsr etdikləri şeirlərini oxuyublar.

23 il öncə düşmənin xeyli canlı qüvvəsini məhv edərək mühasirəyə düşən, lakin erməni quldurlarının əlinə keçməmək üçün özlərini qumbara ilə partladan qəhrəman döyüşçülərimizdən biri Vüqar Yarəhmədovun ölümündən 6 ay sonra dünyaya gələn və beş aydır ki, həqiqi hərbi xidmətdə olan oğlu Vüqar Yarəhmədovun çıxışı tədbir iştirakçılarına duyğulu anlar yaşadıb. O deyib: "Mən artıq Çingiz yaşdayam. Mən də Çingiz kimi Azərbaycan Dövlət Texniki Universitetini bitirmişəm. O, təhsilin "Bakalavr" pilləsini başa vuran kimi əsgər gedib, mən də. O, Vətən qarşısında öz sözünü deyib, mən də əmr gözləyirəm. Salman əmi oğlu Çingizlə, mən isə atam Vüqarla fəxr edirəm. Salman əmini oğlu ilə, məni isə atamla tanıyırlar. Bu gün şəhid valideynlərinin, müəllim və tələbələrin qarşısında and içirəm ki, üzünü görmədiyim, adını daşıdığım atamın və tələbə yoldaşım Çingizin intiqamını gec-tez alacağıq. Qəhrəmanlıq qəhrəmanla ölmür. Mən və mənim əsgər yoldaşlarım onların qəhrəmanlıqlarını təkrarlamağa hər an hazırıq. Bir də onu demək istəyirəm ki, artıq qələbənin qoxusu gəlir, qələbə burnumuzun ucundadır".

Qəhrəmanın ailə üzvləri adından çıxış edən Salman Qurbanov Azərbaycan Prezidentinə, Birinci vitse-prezident Mehriban Əliyevaya, Müdafiə Nazirliyinin rəhbərliyinə, eləcə də bugünkü tədbirin təşkilatçılarına dərin minnətdarlığını bildirib, üç ildir ki, oğlunu itirməsinə baxmayaraq dövlət səviyyəsində daimi diqqət və qayğı ilə əhatə olunduqlarını, bir oğul əvəzinə yüzlərlə, minlərlə oğul tapdıqlarını qürurla dilə gətirib.

Tədbir hərbi marşın sədaları altında sona yetib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

*Asudə vaxt*

# "Xidmətimizi uğurla davam etdiririk"

*Ordu sıralarında xidmət edən gənclərin döyüş hazırlığı ilə yanaşı, mənəvi-psixoloji hazırlıqlarının da yüksək olması əsas şərtdir. Hər bir komandir çalışır ki, şəxsi heyət yüksək döyüş ruhunda, heç bir çətinlik çəkmədən uğurla xidmət etsin. Bunun üçün də komandir heyəti tabeliyində olan əsgərlərə daim diqqət və qayğı göstərir, onlara doğma münasibət bəsləyir, xidmətləri ilə yaxından maraqlanır.*




Əsgərlərin mənəvi-psixoloji hazırlığının yüksəldilməsində asudə vaxtın düzgün təşkili də mühüm yer tutur. Ümumiyyətlə, asudə vaxt şəxsiyyətin hərtərəfli inkişafı, fiziki, mənəvi və estetik mədəniyyətini yüksəltmək üçün ən gözəl vasitədir. Ona görə də ordu sıralarında xidmət edən gənclərin asudə vaxtlarının düzgün təşkili komandirlər qarşısında dayanan mühüm vəzifələrdən biridir. İstirahətin mənalı və səmərəli keçməsi əsgərin döyüş ruhuna müsbət təsir edən əsas amillərdəndir. Asudə vaxt zamanı əsgərlər mütaliə edir, tariximizdən bəhs edən filmlər izləyir, dama, şahmat kimi stolüstü idman oyunları oynayırlar.

"N" hərbi hissəsində yataqxanaya gəlişimiz asudə vaxt saatına təsadüf etmişdi. Bizi müşayiət edən zabit şəxsi heyətin sinif otağında olduğunu bildirdi. Otağa daxil oluruq. Burada asudə vaxtın səmərəli təşkilinin şahidi oluruq. "Azərbaycan Ordusu" qəzetini maraqla oxuyan əsgər Nihal Talıblı gözünü yazıdan ayırıb əməkdaşımızın döyüş postlarının birindən yazdığı reportajı oxuduğunu dedi. "Asudə vaxtlarımda ən sevdiyim məşğuliyyətlərdən biri də qəzet oxumaqdı. "Azərbaycan Ordusu" qəzetində digər bölmələrdə xidmət edən silahdaşlarımın şəklini görmək, fikirlərini oxumaq mənə xoş hisslər aşılayır. Bundan başqa silahlar, texnikalar və döyüş maşınları haqqında məlumatları, həmçinin bədii kitabları da oxumağı sevirəm. Ümumiyyətlə, hərbi hissəmizdə yaradılan şəraitdən çox razıyıq. Yeməkxanamız, yataqxanamız, məişət otaqlarımız hamısı yüksək standartlara cavab verir. Hər cür avadanlıqlarla təmin olunub. Bacarıqlı və savadlı komandirlərimiz bizə hərbi sirləri dərindən öyrədirlər. Keçirilən bütün məşğələlərimiz çox səmərəli təşkil olunur. Həmçinin asudə vaxtlarımız və istirahətimiz də daim diqqət mərkəzində saxlanılır. Bizlər də komandirlərimizin tapşırıqlarını dəqiqliklə icra edir, üzərimizə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışırıq. Bir sözlə, xidmətimiz uğurla davam edir."

Nihala xidmətində uğurlar arzulayıb şahmat oynayan əsgərlərə yaxınlaşdım. Maraqlı oyun gedirdi. Oyun başa çatanda qələbə hissi yaşayan əsgər Fərid Hüseynovla həmsöhbət oldum. "Digər fəaliyyətlərimiz kimi, asudə vaxtımız da səmərəli təşkil olunur. Bəzən şahmat, dama oynayır, bəzən də tariximizdən, vətənpərvərlikdən bəhs edən filmləri izləyir, həmçinin qəzet və jurnallardan maraqlı məqalələr oxuyub dünya görüşümüzü artırırıq. Bir sözlə, hərbi xidmətdə həm döyüş vərdişlərinə yiyələnirik, həm də biliyimizi artırır, mənəviyyatımızı zənginləşdiririk. Şəraitimizdən və komandirlərimizdən də çox razıyıq. Bütün təminatlarımız qaydasındadır. Hərbi hissədə qidalanmağımız, istirahətimiz və digər ehtiyaclarımız yüksək səviyyədə təmin olunub. Şəxsi heyət arasında mehribançılıq və səmimiyyət var. Fəxr edirəm ki, Azərbaycan Ordusunun əsgəriyəm."

Qalib gələn əsgər yoldaşının əlini sıxıb təbrik edən əsgər İsrafil Alızadə dedi ki, tezliklə Ali Baş Komandanın əmri ilə biz Qarabağda da Böyük Qələbəmizi qeyd edəcəyik.

Əsgərlər Rəmzi, Ramil, Azər, Elçin, Nurəhməd, Tahir və Vüsal da xidmətlərinin uğurla keçdiyini bildirirlər. Qeyd etdilər ki, hərbi xidmət onlara bir çox üstün keyfiyyətləri formalaşdırır, silah və texnikalardan istifadə bacarığı aşılayır. Həmçinin onu da vurğuladılar ki, döyüş hazırlığının artırılması ilə bərabər, asudə vaxtları da səmərəli təşkil olunur. "Heç bir çətinlik çəkmədən xidmətimizi uğurla davam etdiririk. Yaradılan müasir şərait və komandirlərin doğma münasibəti də buna zəmin yaradır. Keçirilən bütün dərslərə və verilən tapşırıqlara həvəslə yanaşırıq. Vətənə övladlıq borcunun öhdəsindən layiqincə gəlməyi özümüzə mənəvi borc bilirik.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

*Nümunəvi xidmət*

# "Mən də əsgərlərimlə fəxr edirəm"

*Ön xətdə yerləşən hərbi hissədə torpaqlarımızın bütövlüyü uğrunda öz borcunu layiqincə yerinə yetirən hərbi qulluqçulardan biri ilə - baş gizir Teymur Ələkbərovla görüşdük. Görüşümüz də səbəbsiz deyildi. Hərbi hissənin zabiti Firudin Əzizov Teymur Ələkbərovu geniş hərbi biliyə malik, tabeliyində olan şəxsi heyətə qayğıkeş bir hərbi qulluqçu kimi dəyərləndirdi.*



Qeyd etdi ki, onun şəkli hərbi hissənin "Şərəf lövhəsi"ndən təsadüfən asılmayıb: "Hərb aləmini cazibədar bir vadi hesab etsək, bu vadinin sakinləri onun təravətini və cazibədarlığını qorumaq üçün daima axtarmalı və işləməlidirlər. Ona görə də bu vadiyə qədəm basanların müəyyən bir qismi buranın daimi sakini ola bilmir. Gələnlərin bəziləri gəlişləri ilə göz qamaşdırır, amma tez sönür. Digərləri tədricən közərir, ancaq işığı və istisi daimi olur. Baş gizir Teymur Ələkbərov da, sözün həqiqi mənasında, tabeliyində olan şəxsi heyətin və rəhbərliyin hörmətini qazanan işıqlı hərbi qulluqçulardandır."

Söhbət əsnasında baş gizir Teymur Ələkbərovun ömür yollarının səhifələrini vərəqləyərkən öyrənirik ki, 11 iyul 1980-ci ildə Füzuli rayonunun Üçbulaq kəndində anadan olub. Uzun müddətdir həyatını hərbi peşə ilə bağlayıb. Həmsöhbətim bildirdi ki, xidmət etdiyi hərbi hissədə çox gözəl bir mühit formalaşıb. "Ön xətdə bir şeyi nəzərdən qaçırmaq lazım deyil ki, məqamında əsgərlə çiyin-çiyinə düşmənə sən də güllə atmalısan. Bizim hərbi hissəmizdə münasibətlər mehriban ünsiyyət üzərində qurulub."

Hərbi qulluqçu olmaqdan şərəf duyduğunu deyən baş gizir hesab edir ki, yaxşı hərbçi gərək bu peşənin içində olsun və bu peşənin sirlərini öyrənsin: "Fəxr edirəm ki, hərbçiyəm. Onu da qeyd edim ki, hərbçi olmaq hələ şərt deyil. Yaxşı hərbçi öz peşəsini, işini sevməlidir. Əgər hərbi qulluqçu öz peşəsini sevmirsə, ondan yaxşı hərbçi ola bilməz. Bir sözlə, Vətənə xidmət sevgidən güc alır. Buna görə də hər bir hərbi qulluqçu sözlərinə və hərəkətlərinə məsuliyyətlə yanaşmalı, hərbçi nüfuzunun keşiyində dayanmalıdır. Yaxşı komandir öz əsgərini sevməlidir. Komandir öz əsgərini sevmirsə, qayğı göstərmirsə, əsas məqsədi kimi onun layiqli formalaşmasını, hərbi təcrübəsini, təhsilini artırmasını görmürsə, hər bir əsgərə öz övladı kimi qayğı göstərməyə çalışmırsa, öyrətmək üçün öz potensialını gen-bol xərcləmirsə, o, yaxşı komandir ola bilməz. Mən əsgərlərimlə fəxr edirəm və böyük həvəslə onlara hərbi bilikləri öyrədirəm".

Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı nəticəsində yeni açılmış hərbi hissədə əsgər və zabitlər üçün istənilən şəraitin yaradıldığını vurğulayan baş gizir Teymur Ələkbərov bu şəraitin qarşısında nümunəvi xidmət etməməyin mümkün olmadığını qeyd etdi: "İndi əsgər və zabitlərimiz yaxşı başa düşürlər ki, hərbi formanı geyiniblərsə, dövlət rəhbərliyinin diqqət və qayğısından kənarda qalmırlarsa, hər an torpaqlarımızı işğaldan azad etməyə hazır olmalıdırlar və hazırdırlar. Azərbaycan Ordusunun şəxsi heyəti Ali Baş Komandanımızın rəhbərliyi ilə torpaqlarımızı işğaldan azad etməyə qadirdir".

**Mayor**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**



# "Qürurlanıram ki, həm də hərbi qulluqçuyam"

Xəyalına da gəlməzdi ki, hərbçi olacaq. Hərbçi peşəsinə böyük ehtiramı olan gənclərdən biri də o idi. Sinif yoldaşlarına deyərdi ki, oğlan olsam, hərbçi peşəsini seçərdim. Bu kəlmələri eşidən sinif yoldaşlarından neçəsi onun fikrini dəyişib hərbçi peşəsini seçdiyini bilmir. Hər halda, bu fikir təsirsiz ötüşə bilməzdi. Müəllimlərindən birinin bir fikri onun həyatının axarını müəyyənləşdirdi: "Hərbçilər Vətənin, həkimlər insan taleyinin keşiyini çəkir. Hər ikisinin məsuliyyəti böyükdür, hər ikisi cəmiyyət üçün çox dəyərlidir."

Bu söhbəti orta təhsilini başa vuranda daha əhatəli xatırladı. "Hərbçi ola bilməyəcəm, tibb işçisi olacam", - deyə qət etdi. Ata- anası gənc qızın istəyinin əleyhinə getmədi.

Ülviyyə Aslanova 2 saylı tibb texnikumunu bitirdi. Müxtəlif tibb müəssisələrində işlədi. Xəstələrin məmnun baxışlarını əvəzsiz mükafat bildi. Ülviyyə böyük məsuliyyətlə, ehtiramla insanların taleyinin keşiyini çəkirdi.

Günlərin birində "N" hərbi hissəsinin tibb hissəsində işə başladı - əsgər olurdu, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi hərbi xidmətə cəlb olunurdu. Onda taleyinə şükürlər oxudu. Xəyalən müəllimiylə kəlmələşdi: mən tibb işçisiydim, müəllim, indi həm də hərbçi oluram. Həm Vətənin, həm də insanların taleyinin keşiyini çəkəcəm.

Ülviyyə Aslanova kiçik çavuşdur. Hərbi hissənin şəxsi heyətinin sağlamlığının keşiyini çəkir. O da əmindir ki, Azərbaycan Ordusu Ali Baş Komandanın döyüş əmrini qələbəylə tamamlayacaq: "Ordumuz güclüdür, torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Qürurlanıram ki, belə bir ordunun hərbi qulluqçusuyam"...

Kiçik çavuş Ülviyyə Aslanova belə deyir...

**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Suallar:**

**1. Döyüş növbətçiliyinin təşkili və aparılması zamanı əsas təhlükəsizlik tələbləri.**

**2. Hərbi xidmətin təhlükəsizliyinin təmin edilməsi.**

**Mövzu:** Döyüş hazırlığında, döyüş növbətçiliyində təhlükəsizlik qaydalarına riayət edilməsi, hərbi xidmətin təhlükəsizliyinin təmin edilməsi.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan tarixinə dair tarixi və bədii ədəbiyyatdan istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə bağlamaq tövsiyə olunur.*

### *Döyüş növbətçiliyinin təşkili və aparılması zamanı əsas təhlükəsizlik tələbləri*

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Nizamnamə və təlimatlarının, Müdafiə nazirinin əmrlərinin, eləcə də bilavasitə rəislərin əmr və sərəncamlarının tələblərinə müvafiq olaraq, birləşmə və hissələrdə təhlükəsizlik tədbirlərinin təşkili, onların keçirilməsinə rəhbərlik və nəzarət edilməsi komandirlərə və digər vəzifəli şəxslərə həvalə olunur. Onlar döyüş hazırlığı məşğələlərini təşkil edərkən və bu məşğələlərin gedişində təhlükəsizliyin təmin olunmasına dair tədbirlərin işlənib hazırlanmasını həyata keçirirlər.

Döyüş növbətçiliyi "Döyüş növbətçiliyinin təşkili və aparılmasına dair Təlimat"a uyğun təşkil olunur və düşmənin qəfildən hücumunun vaxtında aşkar edilməsi və dəf olunması, həmçinin müdafiənin dayanıqlığını və keçilməzliyini təmin etmək məqsədi daşıyır.

**Döyüş növbətçiliyinin təşkili və aparılması zamanı postlarda aşağıdakı təhlükəsizlik qaydalarına əməl edilməlidir:**

- ehtiyac olmadan patronu patron yuvasına yeritməmək;
- silahla əsgər sığınacağına daxil olmamaq;
- silahı doldurma-boşaltma yerində ancaq post başçısının nəzarəti altında silahı doldurmaq (boşaltmaq);
- daraq taxılandan sonra silahı qoruyucuda saxlamaq;
- doldurulmuş silahla (qoruyucuda olsa belə) davranış qaydalarını pozmamaq (zarafat etməmək, silahla oynamamaq və s.)
- içərisində mərmi (patron) olub-olmamasından asılı olmayaraq, silahı şəxsi heyətə, əsgər sığınacağına, yaşayış məntəqəsinə tərəf yönəltməmək;
- silaha boş darağı taxarkən patronun olub-olmamasına nəzarət etmək;
- səngərdə durarkən başını qaldırmamaq, düşməni ancaq müşahidə məntəqəsindən müşahidə etmək, zirehli jileti çıxarmamaq və silahı əlindən qoymamaq;
- gecə vaxtı tonqalların qalanmasına, maşınların düşmənin müşahidəsi altında olan sahələrdə faralarla hərəkətinə yol verməmək.

Döyüş növbətçiliyində olarkən silahı sökməməli, düşmənlə heç bir halda əlaqəyə girməməli, döyüş növbətçiliyinin yerini (postu) post başçısının icazəsi olmadan tərk etməməli və deyilən tələbləri yerinə yetirməyən əsgər yoldaşı barədə dərhal post başçısına məruzə edilməlidir.

Hər bir hərbi qulluqçu şəxsi və ictimai gigiyena qaydalarına ciddi riayət etməli və öz orqanizmini gündəlik möhkəmləndirməli, tərli-tərli su içməməli, kəsici, deşici əşyalarla zarafat etməməli və həkimin məsləhəti olmadan dərman qəbul etməməlidir. Soyuq vaxtlarda hərbi qulluqçuların orqanizminin həddindən artıq soyuması və donması, isti vaxtlarda isə həddindən artıq qızması, gün yanıqları və istilikvurma hallarının qarşısını alan tədbirlərin görülməsi xüsusi əhəmiyyət kəsb edir.

Mina sahələrinə qətiyyən yaxınlaşmamalı, düşmən haqqında müvafiq məlumatları, eləcə də hər hansı bir hadisəni gördükdə və ya eşitdikdə dərhal post başçısına məruzə edilməlidir.

**Atış çalışmalarının, döyüş atışlarının və döyüş atışlı taktiki təlimlərin keçirilməsi zamanı təhlükəsizlik tədbirləri:**

- atışda təhlükəsizlik, atışların düzgün təşkili, "Atış kursu"nda qoyulmuş qayda və təhlükəsizlik tədbirlərinə dəqiq riayət etməklə, bütün hərbi qulluqçuların yüksək intizamı ilə təmin olunur. Atış keçirilən hər bir obyektdə, onun xüsusiyyətlərini və ərazi şəraitini nəzərə alaraq təhlükəsizlik tədbirləri üzrə təlimat hazırlanır. Təhlükəsizlik tədbirlərini mənimsəməmiş şəxsi heyət atışa buraxılmır;
- hər bir hərbi qulluqçu atışda təhlükəsizlik tədbirlərini dəqiq yerinə yetirməlidir. Hərbi hissə və bölmə komandirləri onlara tabe olan şəxsi heyətin təhlükəsizlik tədbirlərinə dəqiq riayət etmələrinə tam məsuliyyət daşıyırlar;
- atışdan əvvəl hədəf meydanı yoxlanılmalıdır və atış ərazisindən insanlar, heyvanlar və maşınlar çıxarılmalıdır;
- partlamamış mərmilər, minalar, bombalar, partladıcılar və partlama təhlükəli maddələr olan sahələrə girmək (maşınla) qadağandır. Belə sahələrdə müvafiq nişanlı və xəbərdarlıq yazılı göstəricilər qoyulmalıdır;
- atəş açan döyüş maşınları ekipajlarının atış rəhbəri ilə rabitəsi olmayanda atəş açmaq və aparmaq qadağandır. Hədəf meydanında, uçuş məkanında yanğın əmələ gəldikdə, döyüş maşınlarının ekipajları səmti itirdikdə atəş dərhal dayandırılır;
- döyüş maşınlarından atışda xəndəkləri, çalaları və başqa dərin maneələri keçəndə silaha maksimal yüksəlmə bucağı verilir;
- döyüş maşınları ilkin vəziyyətə qayıdana kimi ("Maşınlara" komandası veriləne qədər) lyukləri açmaq və döyüş maşınlarından çıxmaq qadağandır;
- əl döyüş qumbaraları atılanda zapal yalnız qumbaranı atmaqdan əvvəl rəhbərin komandası ilə qoyulur. Daldanacaqdan müdafiə və tank əleyhinə qumbaralar partlayandan 10 saniyədən az olmayaraq keçəndən sonra çıxmaq olar;
- atışlar keçiriləndə əlavə olaraq, hər silah növü üzrə müvafiq təlimatlarda göstərilmiş təhlükəsizlik tədbirlərinin müddəaları rəhbər tutulmalıdır.

### *Hərbi xidmətin təhlükəsizliyinin təmin edilməsi*

Hərbi xidmətin təhlükəsizliyi - hərbi qulluqçuların təhlükəli və zərərli amillərin təsirindən həyati vacib maraqlarının müdafiəsi dərəcəsini əks etdirən hərbi xidmətin vəziyyətidir. Hərbi xidmətin təhlükəsizliyinin təmin edilməsi hərbi qulluqçuların həyat və sağlamlığının qorunub saxlanılmasına, qoşunların həyat fəaliyyətinin bütün növlərinin təhlükəsizlik şəraitinin təşkilinə, eləcə də xidməti vəzifələri yerinə yetirərkən şəxsi heyətin ölümünə və xəsarət almasına səbəb olan amillərin təhlili, proqnozlaşdırılması və təsirinin məhdudlaşdırılmasına yönəlmiş Azərbaycan Respublikasının qanunvericiliyinin, Silahlı Qüvvələrin ümumqoşun nizamnamələrinin, Müdafiə Nazirliyinin müvafiq normativ aktlarının tələblərinin yerinə yetirilməsinə dair vəzifəli şəxslərin və hərbi idarəetmə orqanlarının məqsədyönlü fəaliyyətidir.

Xidməti vəzifələrini (müvafiq işi) yerinə yetirən zamanı hərbi qulluqçuların təhlükəsizliyini təmin edən qanunvericilik aktları ilə, normativ-texniki sənədlərlə, qaydalar və təlimatlarla müəyyən edilmiş təhlükəsizlik tələbləri vardır. Azərbaycan Respublikasının Müdafiə nazirinin qərar və əmrləri, Müdafiə nazirinin müavinləri, qoşun növləri komandanlarının əmr və sərəncamları ilə isə əlavə təhlükəsizlik tələbləri müəyyən edilir.

**Hərbi xidmətin təhlükəsizliyinin təmin edilməsi üzrə tədbirlərin əsas məqsədi aşağıdakılardır:**

- şəxsi heyət arasında qeyri-döyüş itkilərinin qarşısının alınması;
- hərbi qulluqçular tərəfindən yerli əhaliyə qarşı hüquq pozuntularının qarşısının alınması;
- ətraf təbii mühitə zərər vurmağın maksimum azaldılması.

**Hərbi xidmət təhlükəsizliyinin təmin olunmasının digər vəzifələri aşağıdakılardır:**

- hər bir hərbi qulluqçuda təhlükəsizlik tədbirlərinə və qaydalarına ciddi əməl olunmasına dair şəxsi məsuliyyətin formalaşması;
- şəxsi heyətdə həm öz həyatının, sağlamlığının, həm də ətrafdakıların həyat və sağlamlığının qorunub saxlanılmasına şüurlu münasibətin formalaşdırılması;
- bütün kateqoriyalı vəzifəli şəxslərə hüquqi mədəniyyətin və mövcud hüquq normalarının yerinə yetirilməsi hissinin aşılanması;
- hərbi qulluqçuların maksimum təhlükəsiz fəaliyyətini təmin edən möhkəm hərbi-peşəkar və mənəvi-psixoloji keyfiyyətlərin formalaşdırılması;
- şəxsi heyətdə mülki əhaliyə hörmətlə yanaşmanın və onlara qarşı normativ hüquqi tələblərin ciddi yerinə yetirilməsinin formalaşdırılması;
- hərbi qulluqçularda ətraf mühitə humanist münasibətlərin formalaşması.

Hərbi xidmətin təhlükəsiz şəraitini yaratmaq yalnız o zaman mümkündür ki, onlardan qorunmanı tələb edən hərbi xidmətin təhlükəsizliyinə təhdidlər məlum olsun.

**Hərbi xidmətin təhlükəsizliyi aşağıdakı əsas növlərə bölünür:**

- döyüş növbətçiliyinin (növbəsi) təhlükəsizliyi;
- qarovul, daxili və qarnizon xidmətinin təhlükəsiz aparılması;
- silah və hərbi texnikanın istismarının təhlükəsizliyi;
- döyüş hazırlığının (o cümlədən, atış çalışmaları, döyüş atışları, taktiki təlimlərin keçirilməsi, döyüş texnikasının sürülməsi) təhlükəsizliyi;
- praktiki və xüsusi məşğələlərin təhlükəsizliyi;
- təsərrüfat işlərinə cəlb edilən hərbi qulluqçuların təhlükəsizliyi.

Şəxsi heyətin fəaliyyətinin xüsusiyyətlərini nəzərə alaraq, hərbi xidmətin təhlükəsizliyinin əsas növləri dəqiqləşdirilə və konkretləşdirilə bilər.

Bu və ya digər təhlükəsizlik növünün mahiyyəti, xarakteri və məzmunu obyektlərə təsir edən amillərlə müəyyən olunur. Ümumi şəkildə hərbi xidmətin təhlükəsizliyinin bütün növlərinin mahiyyəti onların hərbi qulluqçu və ətraf mühit üçün təhlükəsizlikdən, məzmunu isə bu təhlükəsizliyə nail olmağa imkan verən müvafiq tədbirlərin keçirilməsindən ibarətdir. Təhlükəsizlik növünün mahiyyətinin, xarakterinin və məzmununun spesifik xüsusiyyətləri bu konkret fəaliyyət növünün xarakterindən asılıdır.

Hərbi xidmətin təhlükəsizliyinin təmin olunmasına ümumi yanaşma qanunların və normativ hüquqi aktların hərbi xidmətin təhlükəsizliyi məsələləri üzrə bütün tələblərinə ciddi əməl etməkdir.

**Qoşunların gündəlik fəaliyyəti zamanı hərbi xidmətin təhlükəsizliyinə aşağıdakılarla nail olunur:**

- şəxsi heyətin hüquq, azadlıq və təminatlarının Azərbaycan Respublikasının qanunları ilə müdafiəsi, hərbi qulluqçuların fəaliyyətinin xüsusiyyətlərini nəzərə almaqla onlara vətəndaşların sağlamlığının qorunması və əməyin qorunmasının mühafizəsinə dair qanunvericiliyin tələbləri ilə əhatə olunması ilə;
- hərbi xidmət keçən zaman hərbi qulluqçuların təhlükəsizliyinə dair tədbirlər sisteminin və onu təmin edən orqanların təkmilləşdirilməsi üzrə dövlət tədbirlərinin həyata keçirilməsi ilə;
- tabeçilikdə olanların həyat və sağlamlığının qorunmasına görə komandirlərin şəxsi məsuliyyəti ilə, bütün vəzifəli şəxslər tərəfindən hərbi xidmətin təhlükəsizlik şəraitinin yaradılması və saxlanılmasına dair ümumqoşun nizamnamələrinin tələblərini bilməsi və yerinə yetirilməsi ilə;
- hərbi hissə və bölmələrdə qoşun xidmətinin keyfiyyətli təşkili və hüquq qaydalarının saxlanılması ilə;
- hər bir hərbi qulluqçu ilə məqsədyönlü tərbiyə işinin aparılması, hərbi kollektivlərdə sağlam mənəvi-psixoloji mühitin saxlanılması ilə;
- şəxsi heyətin sağlamlığı və hərbi qulluqçuların konkret fəaliyyət növünə yararlığının müəyyən edilməsi üçün peşə psixoloji seçiminə tibbi nəzarətin yaxşılaşdırılması ilə;
- yanğından mühafizənin təşkili və ətraf mühitin mühafizəsinə dair görülən tədbirlər ilə;
- şəxsi heyətin ölüm və xəsarətalma hallarının səbəb və şərtlərinin aşkarlanması və aradan qaldırılması, bu məsələlərlə bağlı hərbi prokurorluq və ərazi hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqə ilə;
- komandirlər (rəislər) tərəfindən şəxsi heyətin ölüm və xəsarətalma hallarının qarşısının alınması üzrə komissiyanın işinə gündəlik rəhbərliklə;
- şəxsi heyətin xəsarətalma faktları üzrə xidməti araşdırmaların təyin edilməsi və onların nəticələrinə görə müvafiq qərarların qəbul edilməsi ilə.

Hərbi xidmətin təhlükəsizliyinin təmin edilməsinə dair komandirlərin fəaliyyətinin vacib mərhələsi tabeçilikdə olan bölmələrdə təhlükəsizliyin vəziyyətinin təhlili və onun təmin edilməsinə dair yekunların keçirilməsidir.

Hərbi qulluqçuların fiziki və psixoloji sağlamlığının qorunması və möhkəmləndirilməsinə qayğı göstərilməsi komandirlərin əsas vəzifəsidir. Məhz onların üzərinə qoşun xidməti, döyüş hazırlığı, döyüş növbətçiliyi (növbəsi), təsərrüfat və hərbi hissənin (bölmələrin) digər fəaliyyət növləri ilə əlaqədar keçirilən müxtəlif tədbirlər zamanı təhlükəsizlik tələblərinin təmin olunmasına görə böyük məsuliyyət düşür.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Məktəblilər Heydər Əliyev adına Hərbi Liseydəki mövcud şəraitlə tanış olublar

*Heydər Əliyev adına Hərbi Liseydə təhsil almaq üçün müraciət edən namizədlər liseydəki təlim-tədris şəraiti ilə tanış olublar.*



Gələcəkdə zabit olmaq istəyən şagirdlərin hərbi liseydə mövcud olan şəraitlə tanış olması artıq ənənə halını alıb. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi ilə Əlahiddə Ümumqoşun Ordunun birgə tədbirlər planına əsasən razılaşdırılmış qrafikə uyğun olaraq keçirilən tədbirdə bu dəfə Naxçıvan şəhərində fəaliyyət göstərən tam orta məktəblərin şagirdləri və hərbi rəhbərləri iştirak ediblər.

Məktəblilərin Hərbi liseylə tanışlıq prosesi həftədə bir dəfə olmaqla dekabrın 20-dək davam edəcək.

**Leytenant**
**Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi**

# Naxçıvan Döyüş Şöhrəti Muzeyində nümayiş olunan eksponatlar haqqında şagirdlərə ətraflı məlumat verilib



Yeniyetmə və gənclərin hərbi vətənpərvərlik tərbiyəsində mühüm rol oynayan açıq səma altında Naxçıvan Döyüş Şöhrəti Muzeyində növbəti açıq dərs keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Naxçıvan şəhərindən 11, 12 və 17 nömrəli, Babək rayonundan Cəhri kənd 1 və 2 nömrəli tam orta məktəblərin hərbi rəhbərləri və yuxarı sinif şagirdləri açıq dərsə cəlb ediliblər. Tədbirdə məktəblilərə Naxçıvan Döyüş Şöhrəti Muzeyində nümayiş olunan və müxtəlif illərdə döyüş növbətçiliyinə qəbul edilərək döyüş yolu keçmiş eksponatlar haqqında ətraflı məlumat verilib. Bildirilib ki, ötən il 26 adda eksponatla fəaliyyətə başlayan Naxçıvan Döyüş Şöhrəti Muzeyində hazırda 37 adda silah, texnika və qurğu mövcuddur.

# "Nasistləri və terrorçuları qəhrəmanlaşdırmaq Ermənistanın dövlət siyasətidir"

*Nasistləri və terrorçuları qəhrəmanlaşdırmaq Ermənistanın dövlət siyasətidir. Təcavüzkar ölkədə əvvəlki hakimiyyət rəhbərləri kimi, hazırkı baş nazir Nikol Paşinyanın da bu məsələdə müdafiə cəhdləri əsassızdır.*

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyədə fəaliyyət göstərən Avrasiya Araşdırmalar Mərkəzinin (AVİM) sədri, səfir Alev Kılıç ifadə edib.

Faşist Almaniyasına sədaqətlə xidmət edən Qaregin Njde ləqəbi ilə tanınan Qaregin Ter-Arutyunyanın türklərə qarşı döyüşməsinin əsasında milli, dini və irqi zəmində qisasçılıq olduğunu diqqətə çatdıran səfir vurğulayıb ki, bütün bu cinayətləri əks etdirən istintaq materialları və məhkəmə qərarları mövcuddur. Belə bir cinayətkara Ermənistanda heykəl qoymaq beynəlxalq prinsiplərə təhqir və təhdiddir. Ümumiyyətlə nasistə və terrorçuya sayğı göstərmək Ermənistanın ictimai-siyasi həyatında yenilik deyil.

AVİM-in sədri vurğulayıb ki, erməni-nasist əməkdaşlığına dair üzə çıxarılan hər bir fakt beynəlxalq ictimaiyyət üçün cəlbedicidir. Çünki nasist və terrorçuların qəhrəmanlaşdırılması bütün dünyada sülh və sabitlik üçün təhlükə mənbəyi kimi dəyərləndirilir.

# 416-cı Azərbaycan atıcı diviziyası döyüşçülərinin şərəfinə ucaldılmış "Sambek yüksəkliyi" kompleksində muzey açılacaq

*2020-ci il mayın 9-da, Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi münasibətilə 416-cı Azərbaycan atıcı diviziyası döyüşçülərinin şərəfinə ucaldılmış "Sambek yüksəkliyi" kompleksində hərbi-tarixi muzey açılacaq.*

AZƏRTAC xəbər verir ki, bu barədə Rusiyanın Rostov vilayətinin qubernatoru İvan Qolubyev Rusiya-Azərbaycan Regionlararası Forumunda çıxışında məlumat verib. O, Azərbaycan rəhbərliyini kompleksin açılışına dəvət edib.

"Sambek yüksəkliyi" Memorial Kompleksi Rostov vilayətinin faşist işğalından azad edilməsinin simvolu sayılır. Memorial döyüşlərdə qəhrəmancasına həlak olmuş əsgərlərin, o cümlədən 416-cı Azərbaycan Taqanroq atıcı diviziyası döyüşçülərinin şərəfinə ucaldılıb. Kompleksin 1980-ci ildə keçirilmiş açılışında o zaman Azərbaycan Kommunist Partiyası MK-nın Birinci katibi olmuş Heydər Əliyevin rəhbərliyi ilə nümayəndə heyəti iştirak edib. Kompleksin müəllifləri azərbaycanlı memar Elcan Şamilov və rusiyalı memarlar, ata və oğul Qriqorlardır.

Kompleksin ərazisində muzeyin yaradılması barədə qərar 2014-cü ildə qəbul edilib. 2015-ci ildə Taqanroqun azad edilməsi günü - avqustun 30-da muzeyin təntənəli təməlqoyma mərasimi keçirilib.

# Naxçıvanda hərbi qulluqçular arasında keçirilən voleybol birinciliyi yekunlaşıb

Naxçıvan Qarnizonu üzrə hərbi qulluqçular arasında keçirilən voleybol birinciliyi başa çatıb.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Voleybol Federasiyası və Əlahiddə Ümumqoşun Ordunun birgə təşkil etdikləri birincilikdə 18 komanda mübarizə aparıb.



Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilən yarışlar 5 gün davam edib. Ümumi nəticələrə əsasən üçüncü yerdə Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının hərbi qulluqçuları, ikinci yerdə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin voleybol komandası, birinci yerdə isə Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşları qərarlaşıb.

Qalib komandalara Əlahiddə Ümumqoşun Ordu Komandanlığı tərəfindən diplom və kuboklar təqdim edilib.

**Leytenant**
**Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi**

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş ərazilərimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində hərbçilər arasında şəxsiyyəti alçaltma, fiziki və cinsi təzyiqlərə məruz qalma, kiçik komandirlərin və zabit heyətinin özbaşınalığı səbəbindən cinayət hadisələrinin sayı durmadan artır.

Bu yaxınlarda bölmələrdən birində daha çox xidmət etmiş erməni əsgərlərin nizamnamələrə sığmayan tələblərinə etiraz edən gənc əsgərlərlə kütləvi davası baş verib.

Məlumatı verən iddia edir ki, dava zamanı müxtəlif dərəcəli xəsarət alan hərbi qulluqçular tibb məntəqəsinə göndərilib. Davanın birbaşa səbəbkarı olan hərbi qulluqçular Artur Fahradyan, Albert Xaçatryan, Erik Xanpetyan, Harutyun Minasyan və Qarnik Xaçatryan barəsində cinayət işi açılıb.

* * *

İşğal edilmiş ərazilərimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində intizamsızlıq və təhlükəsizlik qaydalarının pozulması səbəbindən müxtəlif hadisələr baş verir.

Bu yaxınlarda işğalçı ordunun bölmələrindən birində növbəti qeyri-döyüş şəraitində xəsarət alma hadisəsi qeydə alınıb.

Xəbərdə deyilir ki, hərbi qulluqçu Boris Boğazaryanın valideynləri uzun müddət övladlarından xəbərsiz olduqlarına görə hərbi prokurorluğun qaynar xəttinə zəng ediblər. Valideynlərin müraciəti əsasında prokurorluğun əməkdaşı D.Qasparyan hərbi hissəyə zəng edərək əsgər B.Boğazaryanla maraqlanıb. Məhz bundan sonra hadisənin üstü açılıb.

Məlum olub ki, təhlükəsizlik qaydalarının pozulması nəticəsində xəsarət alan əsgər B.Boğazaryan bir neçə gündür hərbi hissənin tibb məntəqəsində müalicə olunur. Hadisəni gizlədən hərbi hissə komandanlığı əsgərə valideynləri ilə də əlaqə yaratmamasını tapşırıb.

Hərbi polis faktla bağlı araşdırma aparır.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

# Voleybol üzrə ordu birinciliyi başa çatdı

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun 2019-cu il üçün təsdiq etdiyi plana əsasən, 18-23 noyabr tarixlərində voleybol üzrə ordu birinciliyi keçirildi. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin idman zalında təşkil olunan yarışda hərbi birləşmələri, qoşun növü və qismləri, xüsusi təyinatlı təhsil müəssisələrini təmsil edən 14 komanda öz güclərini sınayırdı. Keçirilən yarışın ilk günündə rituala uyğun olaraq ümummilli lider Heydər Əliyevin və ərazi bütövlüyümüz uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi, hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.*





Təntənəli yarışın açılış mərasimində çıxış edən Müdafiə Nazirliyi fiziki hazırlıq və idman bölməsinin rəisi polkovnik Sadiq Paşayev Müdafiə naziri general-polkovnik Zakir Həsənovun adından yarış iştirakçılarına uğurlar arzuladı və ordu birinciliyi idman turnirinin keçirilməsinin önəmindən danışdı. Polkovnik S.Paşayev ordu sıralarında xidmət edən hərbi qulluqçuların fiziki hazırlığına nəzarətin rəhbərlik tərəfindən qarşıya qoyulmuş prioritet məsələlərdən biri olduğunu bildirdi. "Gənclərin sağlamlığı hər bir ölkənin təməl prinsiplərindəndir. Sağlamlığın əsasını təşkil edən amilin idmanla bağlı olduğunu nəzərə alsaq görərik ki, ölkə rəhbərliyi gənclərin sağlam ruha, yüksək fiziki göstəriciyə sahib olmaları və formalaşmaları üçün çox zəruri işlər görür. Bu gün Azərbaycanda, demək olar ki, bütün idman növlərində dinamik inkişaf var və hər bir idman növündə qazanılan uğur dövlətimizin beynəlxalq imicini daha da artırır. Rəhbərlik tərəfindən uğurla aparılan idman siyasəti ordumuza da öz müsbət təsirini göstərir. Şəxsi heyətin fiziki hazırlığının nəzarətdə saxlanması üçün hərbi hissələrdə günün nizam qaydasına uyğun olaraq idman tədbirləri həyata keçirilir. Müntəzəm olaraq hər il keçirilən ordu birinciliyi yarışlarında hərbi qulluqçularımız fərqli yarışlarda öz güclərini sınayır, idman üzrə ordu birincisi adını qazanmaq üçün mübarizə aparırlar. Bundan başqa hərbçi idmançılarımız təkcə ölkə hüdudlarında keçirilən turnirlərdə deyil, həmçinin ölkə xaricində təşkil olunan beynəlxalq turnirlərdə də iştirak edirlər. Davamlı təşkil olunan yarışlara qoşulan hərbi qulluqçularımız ölkəmizi layiqincə təmsil edərək bayrağımızı daim yüksəklərdə dalğalandırırlar. Sözsüz ki, hər bir idmançımızın qazandığı uğur bütövlükdən ölkəmizin uğurudur".

Zabitin çıxışından sonra komandalar meydana çıxdı və yarışlara start verildi. Birinciliyin ilk 3 günü qrup mərhələsində keçirildi. Uğurla çıxış edən komandalar növbəti mərhələyə yüksələrək, çempionluq uğrunda daha ciddi mübarizəyə atıldılar.

Yarımfinal mərhələsində "Şəmkir" və "Beyləqan" komandaları üz-üzə gəldilər. Komandaların heyətləri ilə tanış olaq:

"Şəmkir" komandası - baş leytenant Yusif Murtuzəliyev, gizir Tayıb Tayıblı, çavuş Adil İsgəndərov, kiçik çavuşlar Reşal Əkbərov, Tural Məmmədov, Qüvvət Əmrahov, əsgərlər Füzuli Tağıyev, Elçin İsmayılov, Muxama Yaqubov və Famil Məmmədli.



"Beyləqan" komandası - baş leytenantlar Samir İsayev, İslam Əzimzadə, leytenant Ağarəşid Əliyev, gizir Əli Bədəlov, çavuş Rüstəm Əliyev, kiçik çavuş Əkbər Əkbərli, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları əsgərlər Şəhram Bünyagirli, Vüsal Yaqubov, əsgərlər Ruslan Əliyev və Nayeddin Alıyev.

Gərgin mübarizə şəraitində keçən qarşılaşmada "Beyləqan" komandası rəqibini üstələyərək adını finala çıxdı. "Şəmkir" komandası üçüncü yer uğrunda mübarizəni davam etdirməli oldu.

Növbəti yarımfinal görüşü "AAHM" və "HHQ" komandaları arasında keçirildi . Komandaların heyəti aşağıdakı kimidi:

"AAHM" komandası - polkovnik-leytenant İrşad Seyidov, kursantlar İntiqam Abdullayev, Şamxal Həsənov, Elvin Hüseynov, Rəmzi Mustafayev, Hidayət İsmayılov, Bayram Rzayev, Fəqan Abdullayev, Simran Sadıqov, Bahadur İsmayılov.

"HHQ" komandası - kapitan Səfa Səmədov, leytenant Beytulla Abdullayev, baş gizir Zaur Əsədov, gizirlər Elvin Abdullayev, Elməddin Məlikov, Niyaməddin Cəfərov, Təbriz Atakişiyev, əsgərlər Elxan Quliyev, Qurban Bayramlı, Aydın İsayev.

Rəqibinə qalib gələrək adını finala yazdıran ikinci komanda "AAHM" oldu.

Noyabrın 23-də voleybol üzrə ordu birinciliyinin final və 3-cü yer uğrunda görüşləri keçirildi. Son oyuna maraq yüksək səviyyədə idi. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin idman zalına komandaları dəstəkləməyə gələn xeyli sayda azarkeş var idi. Əvvəlcə 3-cü yer uğrunda yarışa start verildi. Üz-üzə gələn "Şəmkir" və "HHQ" komandaları arasında qarşılaşmada hərbi aviasiyamızın təmsilçiləri 3-1 hesabı ilə qalib gəldilər.

Üçüncü yerin sahibi olan "HHQ" komandasının oyunçusu Aydın İsayevin fikirlərini öyrəndim. O dedi: "Gənclərimizin sağlam ruhda böyüməsi ölkə rəhbərliyinin daim diqqət mərkəzindədir. Məlumdur ki, fiziki hazırlıq döyüş hazırlığının ayrılmaz tərkib hissəsi olmaqla yanaşı, verilən tapşırıqların operativ şəkildə yerinə yetirilməsində mühüm göstəricilərdən biridir. Yeni tikilən hərbi hissələrdə müasir standartlara cavab verən idman şəhərciyi, trenajor zalları şəxsi heyətin fiziki hazırlığının daim diqqətdə saxlanmasına şərait yaradır."

Nəhayət, voleybol üzrə ordu birincisinin adının məlum olacağı final qarşılaşmasının başlanmasına saniyələr qalırdı. Bir tərəfdə heyətinin gənc kursantlardan ibarət olmasına baxmayaraq, rəqiblərini üstələyən "AAHM" komandası, digər tərəfdə isə rəqiblərinə heç bir şans verməyən "Beyləqan" komandası. Və budur, finalçılar meydana çıxdılar. Hakimlər heyəti Zaur Hacıyev, Fuad Ağayev, Eldar Əliyev idmançılara uğurlar arzuladı və finalın dostluq şəraitində keçməsinin vacibliyini komandaların kapitanlarının diqqətinə çatdırdı. Hakimin fitindən sonra oyuna start verildi. Hər iki komandanın yarışa ciddi hazırlaşdığı ilk dəqiqələrdən hiss olunurdu. Qarşılıqlı mübarizə şəraitində keçirilən görüşdə "Beyləqan" komandası rəqibini üstələyərək kubok və qızıl medala sahib oldu.

Yarışların gümüş mükafatçısı olan "AAHM" komandasının idmançısı kursant İntiqam Abdullayev bildirdi ki, bu turnirdə iştirak edən hər bir komanda qalib olmaq istəyir. " Bugünkü final mərhələsində "Beyləqan" komandası güclü oldu. Bizim göstərdiyimiz nəticəni də pis saymaq olmaz. Nəzərə alsaq ki, yarışın ən gənc komandası biz idik, deməli, digər komandalara qarşı layiqincə mübarizə aparıb gümüş medalın sahibi olduq. Finalda iştirak etməyin özü də bir uğurdur. Bir daha "Beyləqan" komandasını qələbə münasibətilə kollektivimiz adından təbrik edirəm."

Voleybol üzrə ordu birinciliyinin qalibi "Beyləqan" komandasından baş leytenant İslam Əzimzadə qeyd etdi ki, bütün idmançılar yalnız qələbə və qazanacağı uğur haqqında düşünməlidi. "Biz bu yarışa çox ciddi hazırlaşırdıq. Müntəzəm məşqlərin, gərgin əməyin nəticəsidir ki, bu gün fəxri kürsünün ən yüksək zirvəsinə yüksəlib kuboku başımız üzərinə qaldırdıq. Yarışda iştirak edən həmkarlarımızın hər birinə uğurlar arzulayıram və demək istəyirəm ki, hər bir Azərbaycan əsgərinin qazandığı uğur ümumilikdə Azərbaycan Ordusunun uğurudur".

Qalib komandanın digər üzvü baş leytenant Samir İsayev bu yarışlarda əvvəl də iştirak etdiyini bildirdi. "Bütün kollektiv adından bizi dəstəkləyənlərə təşəkkürümü bildirirəm. Yarışda mübarizə aparan bütün həmkarlarıma da, həm xidmətlərində, həm də gələcək yarışlarda uğurlar arzulayıram. Baxmayaraq ki, bu yarışda ayrı-ayrı komandalar tərkibində bir-birimizə qarşı mübarizə apardıq, amma bizim əsas haqq mübarizəmiz ərazilərimizi işğal edən düşmənlədir. Bu yarışda qalib gəlmək üçün mübarizə aparsaq da, hər birimizin bir müqəddəs amalı var - torpaqlarımızı işğaldan azad etmək. Döyüş əmrinin veriləcəyi təqdirdə düşməni məğlub edib, əsl qələbəni o zaman qeyd edəcəyik".

Çempion olan "Beyləqan" komandasının təmsilçiləri fəxri kürsünün ən yüksək zirvəsinə qalxaraq polkovnik Sadiq Paşayev, polkovnik-leytenantlar Zöhrab Rəhimov və Fariz Qəhrəmanov tərəfindən medal və diplomlarla təltif edildilər. "AAHM" komandası gümüş, "HHQ" komandası bürünc medallara və diplomlara layiq görüldülər. İlk üçlükdə yer tutan komandaların təltifetmə mərasimi başa çatdıqdan sonra yarışları idarə edən hakimlər Müdafiə Nazirliyi rəhbərliyi tərəfindən fəxri fərman və diplomlarla mükafatlandırıldı. Xatirə şəkli çəkildikdən sonra ordu birinciliyinin voleybol üzrə keçirilən turniri bağlı elan edildi.

**Baş leytenant**
**Fuad CƏFƏROV,**
**"Azərbaycan Ordusu"**

| Baş redaktor | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | Vahid MƏHƏRRƏMOV | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 948 Nüsxə 3950 |